Aydın Qasımlı
Filologiya üzrə fəlsəfə doktoru, dosent

76 il öncə yurdundan sürgün edilmiş Krım türkləri

XXI yüzilliyin başlanğıcı olan bu illərdə türk soyuna mənsub olan xalqlar Çinin batısı, Rusiyanın doğusundan başlayaraq Balkanlara qədər böyük bir ərazidə yaşamaqdadırlar ki, bu əraziyə şərti olaraq siyasi-ideoloji anlamda "Türküstan"və ya "TURAN " demək olar.

Eyni soydan olan və tarixə öz möhürünü vurmuş bu "Tanrı ordusu türkləri"i indiki anda siyasi, demoqrafik və coğrafi baxımdan yeddi ana qrupa bölmək olar:

1. Müstəqil dövlətləri olan türklər. Bunlar sırası ilə aşağıdakılardır:

Azərbaycan Respublikası;
Qazağıstan Respublikası;
Qırğızıstan Respublikası;
Quzey Kipr Türk Respublikası;

Özbəkistan Respublikası;
Türkiyə Respublikası;
Türkmənistan Respublikası.

Əfsuslar olsun ki, Quzey Kipr Türk Respublikası Türkiyə dövlətindən başqa heç bir dünya dövləti tərəfindən rəsmən tanınmamışdır.

2. Rusiya Federasiyası tərkibində yarımmüstəqil ərazi Muxtariyyəti olan türklər:

Başqırdıstan Muxtar Respublikası;
Tatarıstan Muxtar Respublikası.

3. Ayrı-ayrı dövlətlərin tərkibində yalnız ərazi Muxtariyyətı olan türklər:

Çuvaş Muxtar Respublikası (Rusiya Federasiyası tərkibində);
Qaqauz Muxtar Yeri (Moldaviya Respublikası tərkibində);
Xakas Muxtar Vilayəti (Rusiya Federasiyası tərkibində);
Krım Muxtar Respublikası (Ukrayna Respublikası tərkibində);
Tuva Muxtar Respublikası (Rusiya Federasiyası tərkibində);
Yakut (Saka) Muxtar Respublikası (Rusiya Federasiyası tərkibində);
Dağlıq Altay Muxtar Vilayəti (Rusiya Federasiyası tərkibində).

4. Ayrı-ayrı dövlətlərin tərkibində heç bir siyasi bağımsızlığı olmayan və ayrı-ayrı xalqlarla birgə ərazi Muxtariyyətı olan türklər:

Qaraçay-Çərkəz Muxtar Vilayəti (Rusiya Federasiyası tərkibində);
Kabardin-Balkar Muxtar Respublikası (Rusiya Federasiyası tərkibində);
Sincan-Uyğur Muxtar Bölgəsi (Çin Xalq Respublikası tərkibində).
Sincan-Uyğur Muxtar Bölgəsinin tərkibində əsas yeri tutan Uyğur türklərindən başqa müxtəlif etnik qrupları təşkil edən beş Muxtar əyalət vardır. Bunlar İli Qazax Türklərinin Muxtar Əyaləti, Qızılsu Qırğız Türklərinin Muxtar Əyaləti, Boro Tala Moğol Muxtar Əyaləti, Bayanqol Moğol Muxtar Əyaləti və Çanq-Çi Muxtar Əyalətidir.

5. Ayrı-ayrı dövlətlərin tərkibində heç bir siyasi bağımsızlığı və ərazi Muxtariyyətı olmayan türklər:

Güney Azərbaycan türkləri (İran İslam Respublikası tərkibində);
Güney Türküstan türkləri (Əfqanıstan Respublikası tərkibində);
Kərkük türkləri (İraq Respublikası tərkibində);

Kumık türkləri (Rusiya Federasiyası Dağıstan Muxtar Respublikası tərkibində);
Batı Trakya türkləri (Yunanıstan Respublikası tərkibində);
Noqay türkləri (Rusiya Federasiyası Stavropol Vilayəti və Muxtar Respublikası tərkibində);

6. Yaşadıqları ölkələrdə etnik azlıq təşkil edən türklər:

Bolqarıstan türkləri (Bolqarıstan Respublikasında);
Rumınya türkləri (Rumınya Respublikasında);
Makedoniya türkləri (Makedoniya Respublikasında);
Kosova, Priştina və Draqaş türkləri (Keçmiş Yuqoslaviya Federativ Respublikasında);
Karaim türkləri (Krım, Litva, Ukrayna, İsrail və Polşada).

7. Siyasi və iqtisadi səbəblər üzündən ayrı-ayrı ölkələrdə yaşayan türklər:

a) Siyasi səbəblər üzündən:

Məhsəti və ya Axısxa türkləri (Dünyanın müxtəlif ölkələrində);
Krım türkləri (Dünyanın müxtəlif ölkələrində);
Güney Azərbaycan türkləri (Dünyanın müxtəlif ölkələrində);
Tatarlar (Dünyanın müxtəlif ölkələrində).

b) İqtisadi səbəblər üzündən:

Ayrı-ayrı Avropa ölkələrində yaşayan türklər;
ABŞ və Kanadada yaşayan türklər;
Avstraliyada yaşayan türklər;
Yaponiyada yaşayan türklər;
Səudiyyə Ərəbistanı, Kuveyt, Liviya və başqa ərəb ölkələrində yaşayan türklər.

Biz bu yazımızda müstəqil dövləti əllərindən zorla alınmış Krım türkləri (Onlara Krım tatarları da deyilir - A.M.), onların tarixi və bugünkü demoqrafik durumu haqqında məlumat verməyə çalışacağıq.

Yalnız türk dünyasını deyil, o zamankı Avro-Asiyanın böyük bir hissəsini içinə alan, dünyaya yeni bir nizam gətirən Türk-Moğol İmperatorluğunun Şərqi Avropa və Quzey Türküstan bölgəsi Çingiz xanın nəvəsi, Cucinin oğlu Batı xan tərəfindən idarə olunurdu. Batı xan 28 illik hakimiyyəti dövründə bütün rus knyazlıqlarının siyasi varlıqlarını ortadan qaldırmış, Quzey Qara dəniz bölgələrini və Şərqi Avropanı işğal etmiş, Xəzər dənizi və Aral gölünün ətraflarını da öz Qızıl Orda dövlətinə qataraq Böyük Türk-Moğol İmperatorluğu içərisində yeni bir imperatorluq qurmuş, mərkəzi Saray şəhəri olmaqla Qızıl Orda İmperatorluğunun qurucusu kimi tarixə öz damğasını vurmuşdur. Qızıl Orda İmperatorluğunun tərkibinə daxil olan ərazilərin ən böyük bir qismində türklər yaşadığından və moğolların böyük qisminin sonradan Monqolustana qayıtması nəticəsində dövlət tədricən tamamilə türkləşmiş, Qızıl Orda dövləti bir türk dövlətinə çevrilmişdi. Dövlətin rəsmi dili Çığatay türkcəsi, ordunun və əhalinin əsas hissəsinin türklərdən ibarət olması, Uyğur türk əlifbasından istifadə edilməsi, əvvəl Göy Tanrı dinində, daha sonra isə Batı xanın kiçik qardaşı Bərkə xanın islamı qəbul etməsi Qızıl Orda dövlətini tamamilə bir türk dövləti durumuna gətirmişdi.

Bir çox siyasi amillərin, xüsusilə Əmir Teymurun dalbadal endirdiyi üç ağır zərbədən sonra özünə gələ bilməyən Qızıl Orda İmperatorluğu nəhayət 1502-ci ildə tarixə qovuşdu. Bu imperoatorluğun xarabalıqları üzərində sonradan Krım, Qazan, Həştərxan, Qasım, Noqay və Sibir xanlıqları quruldu.

İç qovğalar səbəbindən parçalanmağa başlayan imperatorluğun içində ilk müstəqil siyasi varlığa namizəd Krım xanlığı oldu. Çingiz xan soyundan olan prenslər Krıma dayanaraq öz xanıqlarını elan edir və tədricən Volqa boyundakı mərkəzi ələ keçirməyə çalışırdılar. Cucinin kiçik oğlu Tokay Teymur soyundan olan Baş Teymur Krımda öz adına sikkə buraxdıraraq hakimiyyət iddiasında bulunmuş, oğulları rəqiblərinə qalib gələrək Krımda bir xanlıq qurmağa müvəffəq oldular. Krım xanlığının həqiqi qurucusu isə hacı Çiray xandır. O, Volqa bölgəsindən bir çox qəbilələri öz tərəfinə çəkərək Qızıl Orda xanına qarşı Moskva knyazlığı ilə ittifaq yaradır, öz durumunu gücləndirirdi. Osmanlıların İstanbulu zəbt edərək Qara dənizə hakim olmalarından sonra Krım xanlığı ilə Osmanlılar arasında sıx ilişkilər başladı. Nəhayət 1475-ci ildə Krım xanlığı Osmanlı himayəsinə keçdi.

Tarixin müəyyən dönəmlərində Rusiya çarlığına etinasız yanaşan müəzzəm Osmanlı İmperatorluğu Rusiya ilə münasibətləri özünə tabe olan Krım xanlığı ilə həyata keçirir, "Rus məsələləri ilə Krım xanlığı məşğul olurdu". Bu dönəmlərdə Rusiya Krım xanlığına illik vergi "Tış" ödəyirdi. Krım xanlığı o dövrdə Osmanlı İmperatorluğunun himayəsində olmasına baxmayaraq bölgədə söz sahibi idi. Belə ki, XVII əsrdə Boqdan Xmelnitskinin öndərliyində Ukrayna xalqının qurduğu ilk dövlət Krım xanlığının dəstəyi ilə olmuşdur. Boqdan Xmelnitski bir müddət Osmanlı himayəsini qəbul etmiş, lakin Osmanlı dövlətindən lazımi yardımı ala bilmədiyindən Rus çarlığının himayəsini qəbul etmişdi. Osmanlı İmperatorluğunun birləşmiş "Müqəddəs İttifaq" tərəfindən Vyana ətrafındakı məğlubiyyəti Rusiyanın əl-qolunu açmış, Rusiyanı Osmanlı İmperatorluğuna qarşı Avropa xristian dünyası ilə tarixdə ilk dəfə yaxınlaşdırmışdı. Bu iş Moskvadakı almanların təsiri ilə Qərbi Avropaya heyranlıq duyan Pyotrun hakimiyyətə gəlməsi ilə daha da genişlənmiş, çar I Pyotr xristian Avropası ilə əlaqələri daha da yaxınlaşdıraraq 1696-cı ildə Qara dənizin açarı sayılan Azak qalasını ələ keçirməklə Osmanlı dövlətinə ilk böyük zərbəni vurmuşsa da Krıma soxula bilməmiş, Kerç boğazını Krım xanından ala bilmədiyi üçün Qara dənizə ayaq basa bilməmişdi. ***Nəhayət 1737-ci ildə ilk dəfə olaraq Rusiya ordularının baş komandanı Alman əsilli general Münnixin rəhbərliyi altında rus ordıları Krım xanlığı üzərinə yürüyərək öncə Or Qapısını zəbt etmiş, daha sonra Krımın içlərinə qədər irəliləyərək Baxçasarayı yandırmış, Öz qalasını ələ keçirmiş və beləliklə də Krımın və Kuban boyundakı tatarların yaşadığı ərazilərin Rusiyaya verilməsini tələb etmişdisə də bu tələblər "Belqrad müqaviləsi" ilə rədd edilmişdi. "Belqrad müqaviləsi"ndən otuz dörd il sonra, 1771-ci ildə Krım ruslar tərəfindən işğal edilsə də yalnız üç ildən sonra Rusiya ilə Osmanlı dövləti arasında bağlanan 1774-cü il "Kiçik Qaynarca Müqaviləsi"ilə Krım xanlığı Osmanlı dövlətindən ayrılaraq müstəqil bir Krım dövləti şəklində tanındı. Bununla da 1475-ci ildən Osmanlı dövlətinin himayəsində olan Krım xanlığının 299 illik Osmanlı sultanına bağlılığına son verilmiş oldu.***

"Kiçik Qaynarca Müqaviləsi"nin 2-ci maddəsinə əsasən: "Bundan (1774-cü ildən - A.M.) sonra Krım xanlığına daxil olan bütün tatarlar, yəni Krım, Bucaq, Kuban, Yedisan, Canboyluq, Yeddiçkül tatarları heç bir xarici dövlətə tabe olmayacaqlar və tatar xalqı öz rəyləri ilə Çingiz sülaləsindən olmaq şərtilə özlərinə bir xan seçəcək, öz qədim adət-ənənələri ilə müstəqil bir dövlət olaraq yaşayacaqlar"dı.

Əslində bu Krımın Rusiyaya ilhaqı yolunda atılmış ilk addım idi. Bundan sonra müstəqil Krım dövlətinə xan seçilməsi məsələsində Rusiya ilə Osmanlı dövləti arasında mücadilə başlandı. Türklər tərəfindən dəstəklənən Dövlət Gərayı ruslar, ruslar tərəfindən dəstəklənən Şahin Gərayı türklər qəbul etmədiklərindən Krımda ikitirəlik yarandı. Bu qarışıqlıqdan istifadə edən Rusiya Krıma ordu göndərərək oranı işğal etdi və çariçə II Yekaterinanın (kiçik bir alman şahzadəsinin qızı olan II Yekaterina rus çarı III Pyotrun arvadı kimi onun ölümündən sonra rus taxt-tacına sahib olmuşdu) "fərmanı" ilə Krım xanlığı 1784-cü ildə Rusiyaya birləşdirildi. Krımın Rusiyaya ilhaqı "Kiçik Qaynarca Müqaviləsi"nin açıq-aşkar pozulması idi. Lakin "Qaliblər mühakimə olunmur" düsturunu əldə rəhbər tutan çar Rusiyası nəhayət 1791-ci ildə "Yaş müqaviləsi" ilə Krım xanlığının Rusiyaya ilhaqının Osmanlı dövləti tərəfindən tanınmasına nail oldu. Krım xanlığının Rusiyaya ilhaqından (1784) 133 il sonra Krım türklərinin müstəqilliyi məsələsini "Rusiya Müsəlmanlarının hüquqlarını Müdafiə Cəmiyyəti" başda Krımda Türk milliyyətçiliyinin ilk böyük öndəri "Dildə, fikirdə, işdə birlik" ideyasının müəllifi Krımlı İsmayıl Bəy Qaspıralı Avropada gündəmə gətirmiş, daha sonra Krımlı Cəfər Seyidəhməd Bəy isə bu sahədə çox böyük fəaliyyət göstərərək Krım İslam Türk dövlətinin tanınması məqsədilə İstanbula gələrək Ənvər Paşa və Tələt Paşa ilə görüşmüş, yardım məqsədi ilə onlara müraciət etmiş, lakin məlum səbəblər üzündən buna nail ola bilməmişdilər. Nəhayət imperiya daxilindəki bir çox tatarlarla yanaşı Krım tatarları da bolşevik Rusiyanın əsarəti altına düşdü. Krım tatarlarının ən böyük faciəsi də bu dövrlərdən başlandı. Belə ki böyük talesizliyə və haqsızlıqlara uğrayan Krım tatarları digər türk xalqları olan qaraçaylar, balkarlar, Axısxa (Məhsəti) türkləri və digər türk olmayan almanlar, kalmıklar, çeçenlər, inquşlar və bəzi kiçik xalqlarla birlikdə II Dünya Müharibəsi dönəmində Sovet diktatoru Stalinin əmri ilə faşist Almaniyası ilə iş birliyi ittihamı ilə suçlandırılaraq qətlə yetirilmiş və qalanları sürgün edilmişdir. Bu qətl və sürgün nəticəsində Krım tatarlarının təqribən əlli faizi məhv olmuş, qalan hissəsinin böyük bir qismi isə məhv olmamaq üçün özlərini başqa millətlər kimi tanıtmış, adlarını belə dəyişdirib başqa-başqa yazdırmışlar. Sürgündən sonra onlar haqqında 1989-cu ilə qədər heç bir statistik məlumat verilməmişdir. Sovet İmperiyası dağıldıqdan sonra Krım tatarları da başqa suçlandırılan xalqlar kimi öz tatar adlarını bərpa etmiş və öz doğma vətənləri olan Krım Muxtar Respublikasına qayıtmaq uğrunda mübarizəyə başlamış və Krım tatar xalqının böyük oğlu Mustafa Cəmil Bəy Krımoğlunun rəhbərliyi ilə buna qismən də olsa nail olmuş, yüz minə yaxın Krım tatarı Krıma qayıtmış, öz siyasi və iqtisadi hüquqları uğrunda mübarizə aparmaqdadırlar. Bu gün Krım tatarlarının dünyadakı ümumi sayı haqqında dəqiq bir statistik məlumat yoxdur. Bəzi mənbələrin verdiyi məlumatlara görə Krım tatarlarının bir milyona yaxını Özbəkistanda, səksən minə yaxını Türkmənistanda, yüz əlli minə yaxını Qırğızıstanda, beş yüz minə yaxını Qazağıstanda, yüz minə yaxını Tacikistanda, yüz əlli minə yaxını Ukraynanın müxtəlif yerlərində, iki yüz minə yaxını Türkiyə və dünyanın müxtəlif ölkələrində yaşamaqdadırlar.

Krım türklərinin öz doğma vətənlərinə qayıtması uğrunda mübarizələri bu gün də davam edir. Bu işdə onlara bütün mütərəqqi ölkələr, xüsusilə Türk Cümhuriyyətləri əlindən gələni əsirgəməməlidir.

Tanrı sizlərin bu haqlı davanıza yardımçı olsun. Amin.